**AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT XİDMƏTİ**

# 2025-Cİ İL ƏRZİNDƏ ELEKTRON XİDMƏTLƏR VƏ İNNOVASİYALARIN TƏTBİQİ SAHƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏR BARƏDƏ

# H E S A B A T

Hesabat dövrü ərzində Dövlət Xidmətlərinin Elektron Reyestrində (dxr.gov.az) mövcud olan 82 xidmət üzrə hüquqi və fiziki şəxslərdən, bələdiyyələrdən, dövlət qurumlarından 3072746 müraciət daxil olmuşdur.




İqtisadiyyat Nazirliyinin "İş proseslərinin optimallaşdırılması ilə bağlı bir sıra məsələlər haqqında" 08 iyul 2025-ci il tarixli F-96 nömrəli əmr və həmin əmrlə təsdiq edilmiş "İqtisadiyyat Nazirliyi üzrə iş proseslərinin idarə edilməsinə dair Metodiki Göstəriş"inə əsasən iş proseslərinin optimallaşdırılması çərçivəsində əldə edilmiş nəticələrə dair məlumatların rübdə bir dəfə Koordinasiya qrupuna təqdim edilməsi ilə bağlı qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və tabeliyindəki qurumların fəaliyyət sahələri üzrə biznes proseslərinin effektiv idarə olunması, rəqəmsal inteqrasiya imkanlarının dəyərləndirilməsi və avtomatlaşdırılma potensialının araşdırılması məqsədilə biznes proseslərinin rəqəmsallaşdırılması və optimallaşdırılması barədə məlumatlar ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilməsi üçün göndərilmişdir.

"ASAN xidmət indeksi" üzrə 2025-ci ilin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin ilkin nəticələri ilə tanış olunmuş və nəticələrə dair münasibət aidiyyəti üzrə təqdim edilmişdir.

Xidmət rəisinin 25 fevral 2025-ci il tarixli F-15 nömrəli əmri təsdiq edilmişdir. Əmrlə Xidmət üzrə əsas və yardımçı dövlət informasiya ehtiyatları və sistemlərinin məqsədi, istifadə vəziyyəti, funksional imkanları, o cümlədən sözügedən informasiya sistemlərində aşkar edilən problemlərin təhlili, həmin problemlərin həlli istiqamətində tapşırıqlar müəyyən edilmişdir.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən dövlət xidmətlərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması və elektronlaşdırılmasının sürətləndirilməsinə dair Xidmət rəisinin 16 aprel 2025-ci il tarixli F-28 nömrəli əmrinin 3-cü bəndinin icrası çərçivəsində Xidmətin struktur bölmələri və tabeliyində olan qurumları tərəfindən təqdim edilən dövlət xidmətlərinin yenilənmiş siyahısı və həmin xidmətlər barədə zəruri məlumatlar əsasında araşdırma aparılmış, elektronlaşdırılma və avtomatlaşdırılma səviyyəsi, xidmətlərin mövcud qanunvericiliyin tələblərinə uyğunluğu təhlil edilmiş və bununla bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər hazırlanmışdır.

"Rəqəmsal İnkişaf Konsepsiyasının icrası haqqında" iqtisadiyyat nazirinin 5 iyun 2025-ci il tarixli 3-21/3-1-F-80/2025 nömrəli əmrinin icrasının təmin edilməsi barədə Xidmət rəisinin 3 iyul 2025-ci il tarixli İ-13 nömrəli əmri təsdiqlənmiş, həmçinin "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının

Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının 5.1, 5.2 və 5.3-cü bəndlərinin icrası ilə bağlı qurumlardan daxil olmuş məlumatlar ümumiləşdirilərək yekun hesabatlar aidiyyəti üzrə təqdim edilmişdir.

“Torpaqların kateqoriyalarına dair müraciətlərə baxılması” elektron xidmətində daxil olmuş müraciətlərin aidiyyəti qurumlara rəy üçün göndərilməsi və rəylərin əldə olunması mexanizminin elektronlaşdırılması prosesi ilə bağlı işlər görülmüşdür.

Daşınmaz əmlaklara, o cümlədən torpaq sahəsinə dair bölgü sxeminin tərtib edilməsi və elektron üsulla ərizəçiyə təqdim edilməsi xidmətində təkmilləşmələr aparılmış, hazır elektron çıxarışın, texniki pasportun, torpaq sahəsinin planı və ölçüsünün, həmçinin qiymətləndirmə arayışının “Elektron Hökumət” informasiya sisteminə (myGov) yerləşdirilməsi, habelə “Elektron Hökumət” informasiya sistemi (myGov) üzərindən elektron üsulla real vaxt rejimində ərizəçi (hüquq sahibi) tərəfindən əldə edilməsi imkanı təmin edilmişdir.